Parlaq məfkurəli insan

Unudulmaz alim və siyasi xadim Əziz Əliyev 1897-ci il yanvarın 1-də dünyaya göz açıb.

Azərbaycanın məşhur tarixçi-filosofu Abbasqulu Ağa Bakıxanovun gözəl və düşündürücü bir kəlamı var: "Elm və kamalı əldə etməyi hər şeydən daha əziz tut. Çünki hər şeyi onların vasitəsilə əldə edirlər". Doğrudan da mütəfəkkirin sözlərində böyük həqiqət var. Dünyada ən mütərəqqi mövqelər və uğurlar məhz elmin, kamalın vasitəsilə əldə olunmuş və şübhəsiz ki, əsrlər boyu da əldə olunmaqda davam edəcəkdir. Elə buna görə də elmi və kamalı əziz tutub ömrünü xalqının yolunda fəda edən insanlar heç bir zaman unudulmur, onlar günügündən daha da sevilir, daha da əzizlənirlər. Ürəklərdə əbədi yuva quran insan - şəxsiyyətlərdən biri, fədakar alim və görkəmli siyasi xadim olan Əziz Əliyevin doğum günü ərəfəsində onun müqəddəs xatirəsini bir daha yad, ruhunu isə bir daha şad etmək üçün genişmiqyaslı fəaliyyətinin yalnız bircə qolundan, Azərbaycanda tibb elminin, təhsilinin inkişafındakı xidmətlərindən, insanların maariflənməsi, ziyalanması, sağlamlığının qorunması yolundakı əvəzolunmaz zəhmətinin bəzi məqamlarından bəhs etmək istəyirəm. Çünki Əziz Əliyev bir insan, vətəndaş kimi həkimə, həkimliyə böyük qiymət verirdi. İnsanın sağlamlığı, fiziki kamilliyi, onun üçün həyatda ən əsas meyarlardan biri idi. Həkimlik onun gözlərində dünyanın nəinki azar-bezarından, hətta bütün pisliklərindən, əyər-əskiklərindən qurtuluş məqamı idi. Təbii ki, "Sağlam bədəndə sağlam ruh olar" kəlamı da bu yerdə öz həqiqi mənasında səslənir. Bunlarsa düşünməyə əsas verir ki, dünyanı yalnız sağlamlıq xilas edə bilər. Dünya sağlam adamların çiyinində bərqərardır. Əziz Əliyev həkimliyə həmişə bütün mənalarda yüksək qiymət verib, yüksək dəyərləndirib.

Leninqrad Hərbi Tibb Akademiyasına müvəffəqiyyətlə daxil olan Əziz, 1918-ci ilin erməni-daşnak qırğınlarına görə təhsilini başa vura bilməsə də, Tanrı ona çox gənc yaşlarından sevdiyi sənətə daha ürəkdən bağlanmağa imkan verir. Taleyin işinə bax ki, Naxçıvana, sonra da İranın Ərəblər kəndinə pənah gətirən Əzizin özünə hər iki yurdun neçə-neçə xəstə, şikəst insanları pənah gətirir. Tibb məntəqələrində həkim köməkçisi işləyir. Şəfalı əlləri ilə adamlara yardım edir. Yenidən Naxçıvana dönüb tibbi təhsilini davam etdirmək üçün xüsusi göndərişlə 1923-cü ildə Bakıya gələn Əziz, 1927-ci ildə Azərbaycan Dövlət Universitetinin tibb fakültəsini bitirir.

1930-cu ilin əvvələrində Qarabağın indiki Xocavənd rayonunda qəflətən vəba xəstəliyi yayılmağa başlayır. Xəstəlik sürətlə artıb ətraf rayonlara da keçir. O zaman tibb sahəsində məsul fəzifədə olan Əziz Əliyev bütün səhiyyə ordusunu səfərbərliyə alır. Moskvadan akademik Lev Aleksandroviç gəlir. Amma epidemiya getdikcə daha da çoxalır. Təxribatçılar, daha doğrusu, erməni və ermənipərəst xislətli araqarışdıranlar vəziyyətdən istifadə edib gərginlik yaratmaq üçün ətrafı bürümüş vəba epidemiyası ilə bağlı camaat arasında dəhşətli şaiyələr yayırdılar. Guya "Cənnətə getmək üçün vəbadan ölənlərin ciyərlərini yemək lazımdır" yaxud "Bunu edən adama vəba yaxın gəlmir" və s. Bunlar isə xəstəliyi durmadan artırırdı. Axırda camaatın etirazına, hayküyünə baxmayaraq, qoşunların əhatəsində ölənləri yandırmağa başlayırlar. Bu yolla epidemiya dayandırılır.

Qarşımda xeyli sənəd var. Yaddaşları səhifələyirəm.

Milli Məclisin deputatı Arif Rəhimzadənin dediyinə görə, (Əziz Əliyevin 100 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsindəki çıxışından) 1930-cu ildə Azərbaycan Dövlət Universitetinin tibb fakültəsinin bazasında Tibb İnstitutu yaradılır. İnstitutun yaradıldığı lk illərdə bu təhsil ocağına rəhbərlik etmək Əziz Əliyevə nəsib olur. Respublikanın tibb kadrlarına ehtiyacı və bu ehtiyacın ödənilməsinə olan tələbat, bu sahədə milli kadrların çatışmazlığı, Azərbaycan dilində dərs vəsaitinin yoxluğu və digər bu kimi problemlər işin necə çətin və məsuliyyətli olduğunu göstərirdi. Əziz Əliyev Tibb İnstitutunun formalaşmasında və qabaqcıl təhsil ocaqlarının birinə çevrilməsində böyük xidmətlər göstərib. Onun rəhbərlik etdiyi dövrdə Azərbaycan Dövlət Tibb İnstitutundan söz açmaq Mirəsədulla Mirqasımov, Mustafa Topçubaşov, Cahangir Hüseynov, Kamil Balakişiyev, Əbülfəz Qarayev kimi dünya şöhrətli görkəmli alimlərdən söz açmaq demək idi. Qısa müddətdə Azərbaycan dilində 45 adda dərslik və tədris vəsaitinin hazırlanması doğrudan da əsl hünər idi.

Hələ cavan yaşlarından həmkarları tərəfindən "Təcili yardım" ləqəbi almış Əziz Əliyev "təbabətin atası" Hippokrat həkimlər üçün nə tövsiyə etmişdisə, onların hamısına yüksək ləyaqət və zəngin mənəviyyatı ilə tam əməl edirdi. Hansı sahədə çətinliklər mövcud idisə, Əziz Əliyev oraya göndərilir və o, həmin yerdə işləri tənzimləyirdi. Məhz buna görə bu zəhmətkeş və fədakar insan 1934-cü ildə Bakı şəhər səhiyyə şöbəsinə müdir təyin edilib və 1935-ci ildə yenidən Tibb İnstitutuna rektor vəzifəsinə qaytarılıb, 1937-ci ildə isə ona eyni zamanda Azərbaycan Dövlət Universitetinə də rəhbərlik etmək həvalə olunmuşdu.

Əziz Əliyev ömrünün sonuna qədər səhiyyəmizin inkişafına xidmət edib, elmi və nəzəri, praktiki fəaliyyətini bir an belə zəiflətməyib".

T.Talıblı özünün "Əziz Əliyev: dövrü, həyatı, şəxsiyyəti" kitabında yazır ki, Əziz Əliyev Tibb İnstitutunun rektoru kimi fəaliyyətə başladığı gündən institut həyatında əsl dəyişiklik başlandı. Müəllim, tələbə kollektivi arasında o, bir rektor kimi tezliklə böyük hörmət qazandı. İnstitutda canlanma hiss olundu. İnstitutun həyətində ağaclar əkildi. Əziz Əliyev hara gedirdisə, birinci abadlıq işlərindən başlayırdı. İnstitutda yeni korpuslar açıldı. Səhiyyəmizin ən yaxşı kadrları instituta cəlb edildi.

Həmin illərdə Tibb İnstitutunun tələbələrindən olan, tibb elmləri doktoru Abdulla Quliyev yazır: **"Unudulmaz müəllimim Əziz Məmmədkərim oğlu Əliyevi şəxsən 1932-ci ildən tanıyırdım. Onda o, Azərbaycan Tibb İnstitutunun rektoru, mən isə tələbə idim. Əziz müəllim fakültə terapiyası kafedrası nəzdindəki laboratoriya diaqnostikasından bizə dərs deyirdi. Qabaqcadan onu da deyim ki, Azərbaycan dilində "Laboratoriya diaqnostikası" adlı ilk tibb dərsliyini də məhz Əziz Əliyev yazıb və nəşr etdirib."**

Əziz müəllim bütün tələbələri şəxsən adı-soyadı ilə tanıyırmış. Onların hər birinə ayrı-ayrılıqda fərdi münasibət göstərirmiş. Lakin hamıya eyni atalıq tələbkarlığını da unutmurmuş.

Rus tarixçi-akademiki Yevgeniy Viktoroviç Tarle maraqlı bir fikir söyləyib: "Həqiqətən xeyirxah olmaq üçün həddən artıq xeyirxahlıqdan bir az artıq xeyirxah olmaq lazımdır". Xeyirxahlıq, alicənablıq, insanpərvərlik, həssaslıq, qayğıkeşlik, səmimiyyət kimi ali keyfiyyətlər Əziz Əliyevin mənəviyyatını zənginləşdirən, rövnəqləndirən, onu göylərə, səmalara ucaldan və sevdirən müqəddəs dəyərlər idi.

Həmin illərdə Əziz Əliyevin vəzifələri tez-tez dəyişdirilir, o, ən ehtiyac hiss olunan yerlərə göndərilirdi. O, 1934-cü ilin aprelindən 1935-ci ilin yanvarına qədər Bakı Soveti Səhiyyə şöbəsinin müdiri vəzifəsində çalışır. Həmin il yanvarın 28-də Azərbaycan Xalq Səhiyyə Komissarı tərəfindən imzalanan əmrlə Əziz Əliyev yenidən Tibb İnstitutuna direktor təyin edilir və 1938-ci ilin iyununa qədər institutun həyatında və tibb elminin, yüksək ixtisaslı tibbi kadrların yetişdirilməsində böyük rol oynayır. Azərbaycan Dövlət Tibb İnstitutu nəinki Zaqafqaziyada, eləcə də keçmiş Sovet İttifaqında seçilən bir ali məktəbə çevrilir. Bu illərdə institutun təlim-təhsil bazası, texniki avadanlığı, laboratoriyaları, kafedraları yaranır və möhkəmlənir. İnstitutun məzunları keçmiş SSRİ-nin bütün bölgələrinə işləmək üçün göndərilir. Xeyli sayda elmi kadrlar yetişir. Ümumittifaq səviyyəsində tanınan görkəmli alimlər Azərbaycanın Tibb İnstitutuna mühazirələr oxumağa dəvət olunur.

Akademik Mirməmməd Cavadzadə yazırdı: **"...Azərbaycan Tibb İnstitutunun rektoru vəzifəsində çalışan vaxtlarda təhsil ocağının maddi-texniki bazası möhkəmləndirilmiş, praktiki səhiyyəyə yardım artırılıb, institut respublikamızın tibb mədəniyyətinin mərkəzinə çevrilib. Respublikamızın tibb kadrlarının hazırlanmasının keyfiyyətinin yüksəlməsində Azərbaycan dilində ədəbiyyatın nəşri böyük bir irəliləyiş idi. Böyük alimin işə tələbkarlığı, prinsipiallığı, nizam-intizama münasibəti, qoyulan tələblərə riayət etməsi örnək və nümunəyə çevrilmişdi. Azərbaycan tibb ictimaiyyəti arasında həmişə böyük hörmət və izzət sahibi olan** nun rektoru işlədiyi dövrdə, ümumiyyətlə, bütün işgüzar fəaliyyəti zamanı tibb nəşriyyatı yaradıb onu təkmilləşdirmək və inkişaf etdirməklə, Azərbaycan səhiyyəsinin, eləcə də tibb elminin yüksəlişinə öz çoxsaylı töhfəsini bəxş edib. Belə ki, onun təşəbbüsü ilə ilk dəfə "Praktiki və nəzəri tibb jurnalı"nın nəşri təkmilləşdirilib. O, əvvəllər məsul katibi olduğu "Azərbaycan tibb jurnalı"nın redaktoru təyin edilib. Əziz Əliyevin jurnal redaktoru kimi fəaliyyəti zamanı da respublikada tibb işçilərinin yetişməsində, onların elmi əsərlərinin çap olunub yayılmasında, zəngin və fundamental tibb ədəbiyyatının yaranmasında qatlaşdığı böyük zəhmət heç zaman unudulmayacaqdır. Onu da yada salım ki, 1933-cü ildə yenə də Əziz Əliyevin təşəbbüsü ilə Tibb İnstitutunda "Tibb kadrları uğrunda" adlı çoxtirajlı qəzet də çap olunurdu. Hazırda bu qəzet "Təbib" adı ilə Tibb Universitetində nəşr olunmaqdadır.

"Xalq qəzeti"ndə (30 noyabr 2008-ci il) Eldar İsmayılın "Əziz Əliyevin yaratdığı qəzet" məqaləsində oxuyuruq: "1933-cü ilin 16 dekabrında ilk sayı işıq üzü görən "Tibbi kadro uğrunda" qəzeti Tibb İnstitutunun həyatında və eləcə də respublika ictimaiyyəti arasında böyük rəğbətlə qarşılandı. Həmin dövrdə belə bir mətbu orqana böyük ehtiyac hiss olunurdu. Xüsusilə mövcud problemlərin aradan qaldırılması, milli kadrların yetişdirilməsi, tələbələrin təlim-tərbiyəsi sahəsində mühüm işlər görülməliydi. Qarşıda duran qlobal problemləri Əziz Əliyev kimi böyük şəxsiyyət görməyə bilməzdi. Bir sıra çətinliklərə baxmayaraq, o, istəyinə nail oldu. Bundan sonra institut əməkdaşları, professor və müəllimlər, tələbələr, eləcə də həkimlər elmi-pedaqoji fəaliyyətlərini işıqlandıran yeni tribuna əldə etdilər...".

"Tibbi kadro uğrunda" adı altında fəaliyyətə başlayan qəzet milli kadr uğrunda mübarizəyə qoşulur. Həmin günlərdə institut rəhbərliyi sadə zəhmət adamlarının övladlarını, xüsusilə qızları tibb institutuna cəlb etmək üçün qəzetin imkanlarından geniş istifadə edir.

1937-ci ilin 20 noyabrından etibarən "Medisina kadrları uğrunda" adı ilə çıxmağa başlayan qəzet, artıq geniş redaksiya funksiyasına və fəal müxbirlərə malik olur. Bu dövrdə fəallığı daha da yüksələn qəzet, nailiyyətləri göstərməklə yanaşı, mövcud qüsurları da cəsarətlə tənqid edir. Xüsusilə institutda nizam-intizamın möhkəmlənməsi, təlim-tərbiyənin yüksək səviyyədə aparılması işi qəzetin daimi mövzularından biri olur.

Əziz Əliyev tibb sahəsi üzrə milli mütəxəssislərin hazırlığını həmişə diqqət mərkəzində saxlayıb. Onun rəhbərliyi dövründə institutda 11 doktorluq və çox sayda namizədlik dissertasiyaları müdafiə edilib. Dörd il ərzində 30 tibb elmləri namizədi hazırlanıb ki, onlardan 19 nəfəri milli kadrlar olub. Əziz Əliyevin təklifi və bilavasitə iştirakı ilə hazırkı 1 saylı şəhər xəstəxanasının yaxınlığında tələbələr üçün "tibb şəhərciyi"nin tikintisinə başlanılıb. Bir qədər sonra həmin şəhərcikdə tələbə yataqxanaları ilə bərabər, nəzəri kafedralar üçün tədris korpusları da tikilib. O dövrdə sabahın həkimlərinin dərin biliklərə yiyələnmələri, yüksək ixtisaslı mütəxəssis kimi yetişmələri üçün əlverişli şəraitin yaradılması sahəsində də ardıcıl olaraq səmərəli işlər görülüb. N.Semaşko adına xəstəxananın yanındakı qoşa beşmərtəbəli bina məhz Əziz Əliyevin fəaliyyəti və birbaşa zəhməti ilə ərsəyə gəlib.

Xüsusilə heç zaman unutmaq olmaz ki, Əziz Əliyevin təhsil ocağına rəhbərlik etdiyi illər Azərbaycan xalqı üçün digər tərəflərdən də ağır və çətin, yəni siyasi baxımdan repressiyaların meydan suladığı, sayılan-seçilən, günahsız insanların kütləvi şəkildə "aradan götürülən" bir dövr idi. Məhz həmin illərdə xalqımızın mütərəqqi sərvəti, işıqlı sabahı olan yüzlərlə övladı, düşünən beyni məhv edildi. Xeyli alim, ziyalı, sənətkar, mədəniyyət, incəsənət xadimlərimiz heç bir təqsiri olmadan böhtanlara tuş gətirilib sürgün və güllələnərən edildi. Məhz Əziz Əliyev şəxsiyyətinin nüfuzu sayəsində həkimlər belə bəlalardan canlarını qurtara bildilər. Lakin bu böyük insanın milli və mənəvi təəssübkeşliyi ona heç də asan başa gəlmədi. Onun tərcümeyi-halına düşən bir faktı yada salaraq deyim ki, 1938-ci ildə Azərbaycan K(b)P MK tərəfindən aldığı partiya cəzası da Əziz Əliyevə Tibb İnstitutunda anticovet əhvali-ruhiyyəsi yaradanlarla zəif mübarizə aparması ucbatından verilmişdi.

Əziz Əliyevin fəaliyyətinin üstün cəhətlərindən biri ondan ibarət idi ki, məhz eyni vaxtda ona bir neçə vəzifə həvalə olunurdu. Qeyd edildiyi kimi, Tibb İnstitutu kimi ağır bir sahəyə rəhbərlik edən Əziz Əliyev eyni zamanda bir müddət Azərbaycan Dövlət Universitetinin rektoru da olmuşdur. Tibb İnstitutunun rektoru vəzifəsindən Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi vəzifəsinə irəli çəkilən Əziz Əliyevin quruculuq imkanları daha da genişlənmişdi. Lakin Əziz Əliyevdən sonra Tibb İnstitutuna rəhbər təyin olunan erməni S.Tatevesova sonradan üzə çıxan faktlara görə elmimizə və səhiyyəmizə sağalmaz yaralar vurmuşdu.

Əlbəttə, Əziz Əliyev həyatının sözügedən dövrü tək elm və səhiyyənin inkişafına xidmət etməklə bitmirdi. 1934-cü ildə Azərbaycan Kommunist Partiyasının XII qurultayında Ə.M.Əliyev Azərbaycan KP MK üzvü seçilmiş, 1935-ci ildə Sovet Azərbaycanının 15 illiyi münasibətilə Azərbaycan MİK onu Fəxri Fərmanla təltif etmişdi.

1935-ci ildə Zaqafqaziya MİK-nin üzvü, 1936-ci ildə Azərbaycan SSR Ali Sovetinin deputatı seçilən Əziz Əliyev bir neçə çağırış SSRİ Ali Sovetinin deputatı kimi də keçmiş SSRİ-nin Ali Qanunvericilik və siyasi düşərgələrində etibarlı və işgüzar xadim kimi özünü təsdiq etmişdi.

Əziz Əliyevin böyük ömür salnaməsi ilə yaxından tanış olanda hər bir tərəqqipərvər azərbaycanlının ürəyində qürur hissi yaranır. İnsan, zəmanəmizin belə böyük ziyalısı, belə böyük siması, belə böyük azərbaycanlısı ilə necə fəxr etməsin? Onun saf ruhuna necə səcdə etməsin? Dünyaya meydan oxuyan alman faşistlərinin Bakı neftini, Azərbaycanı zəbt etmək arzusunu onların ürəyində çürüdən Əziz Əliyev, haqqında yalnız kitablarda oxuduğu, kandarından ilk dəfə addımladığı Dağıstanda nələr etmədi? Nələr yaratmadı? Əlbəttə, bu onun ömür kainatının başqa bir mövzusu olsa da, Əziz Əliyevin adı gələndə dost və qardaş Dağıstanı yad etməmək mümkün deyil.

1942-1948 ci illərdə Dağıstan Vilayət Partiya Komitəsinin Birinci katibi olan Əziz Məmmədkərim oğlu oraya rəhbər təyin olunduğu ilk zamandan dağlıların hörmət və sevgisini qazanır. Böyük Vətən Müharibəsinin ən şiddətli anlarında tabarasanlı köhnə partiya işçisi Maxmed Hacıyeviçin qeydinə görə, Əziz Məmmədkərim oğlu nəinki rayonların iqtisadi və siyasi problemləri ilə, həm də rayon əhalisinin həyat və məişət, məktəblərin, kitabxanaların və xəstəxanaların işi ilə maraqlanırdı. Əziz Əliyev öz qəlbinin bir hissəsini büsbütün dağlıların ehtiyacına vermişdi. Bu adamı belə bir ağır zamanədə bizə Allahın özü göndərmişdi.

Dağlı məmur Baqautdin Əhmədov yazırdı ki, Azərbaycan Respublikasında səhiyyənin böyük təşkilatçısı olmuş Əziz Əliyev bu sahədəki zəngin təcrübəsindən istifadə edərək Dağıstanda müharibə zamanı təxliyyə hospitallarının dəqiq, rəvan işinə böyük diqqət yetirirdi. Onun tövsiyələrinə əsasən, həkimlər və tibb bacıları ilə yanaşı, hospitallarda məsul işçilər də daim növbə çəkir, hospitalların ərzaq məhsulları, dava-dərman və yanacaqla fasiləsiz təchizatını təmin edirdilər. Respublikada 15-dən çox təxliyyə hospitalı işləyirdi. Müharibə illərində hospitallara 130 mindən çox yaralı gətirilmiş, onlardan 100 min nəfəri və ya 76 faizi sağaldılmışdı...

Əziz Məmmədkərim oğlu doğma Vətəninə, Azərbaycana qayıdandan sonra tükənməz bir enerji, qurub-yaratmaq eşqi ilə Bərpa Cərrahlığı və Ortopediyya İnstitutu, 3 saylı kliniki xəstəxana, Həkimləri Təkmilləşdirmə İnstitutunda da əzmlə çalışır. Savadlı, bacarıqlı həkim kadrların yetişməsində, ixtisaslaşmasında, yüzlərlə xəstənin sağalmasında əlindən gələni əsirgəmir. Uzun illər boyu zəhmətlə qazandığı elmi, nəzəri, idarəçilik təcrübəsi burada da onun köməyinə gəlir, ona böyük ehtiram qazandırır. 1957-ci ildə Azərbaycan Səhiyyə Nazirliyi və Respublika Tibb İşçiləri Həmkarlar Təşkilatı tərəfindən aldığı Fəxri Fərmanda deyilir: **"Uzunmüddətli, yorulmaz fəaliyyətinə, nöqsansız işinə və 30 illik həkimlik əməyinə görə verilir".**

Əziz Əliyev bütün bu nailiyyətləri ilə bərabər, həm də gözəl bir ailə başçısı, səmimi ata kimi yaddaşlarda dönə-dönə xatırlanır. İlahi ona bu baxımdan özünün qəlbinə, ruhuna görə ağıllı, tərbiyəli, işgüzar, daim öz üzərində çalışan mehriban övladlar bəxş etmişdi. Bu övladlar içində özünəməxsus yeri olan, görkəmli alim-oftalmoloq, akademik zirvəsinə yüksələn Zərifə xanım Əliyevanın həyat və ömür yolu bu gün bütün nəsillərə, qız-gəlinlərə, tələbələrə, mütəxəssislərə böyük tərbiyə məktəbidir.

Zərifə xanımın iş yoldaşı olmuş, professor, əvvəllər Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun direktoru vəzifəsində çalışmış Nazim Əfəndiyevin xatirəsindən :

"Əziz Məmmədkərim oğlu qeyri-adi hörmətcilliyi, insan şəxsiyyətinə diqqəti və xeyirxahlığı ilə həmişə seçilmişdir. Hamıya bəllidir ki, respublikanın ən tanınmış adamlarından olan Əziz müəllim həm də səhiyyəmizin bacarıqlı təşkilatçılarından biri idi. Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun direktoru işlədiyi vaxtlarda o, bir dəfə mənə zəng edib zarafatla soruşdu: "Nazim, çayın var?" Mən onun zarafatını başa düşməyib cavab verdim ki, var. Bir müddət keçəndən sonra dedilər ki, Əziz Əliyev mənim yanıma gəlib. Onu qapıda görəndə təəccüblənib düşündüm ki, yəqin gözlərinə baxdırmaq istəyir. Xeyli söhbətləşəndən, bir stəkan çay içəndən sonra məlum oldu ki, Əziz müəllim Zərifəni hansısa vacib bir məsələ ilə əlaqədar işdən saat yarım tez buraxmağım üçün icazə almağa gəlib. Bunu eşidəndə, mən Əziz müəllimin nizam-intizamlığına, sadəliyinə və başqalarına şəxsiyyət kimi hörmətlə yanaşdığına bir daha heyran qaldım. Axı Əziz müəllim bu sözü mənə telefonda da deyə bilərdi. Mən Zərifə xanımı otağıma dəvət etdim. Ata-bala görüşdülər və həmin anda mən onların insani xüsusiyyətləri etibarı ilə nə qədər yaxın və oxşar olduqlarını anladım. Zərifə xanım atasının yolu ilə gedirdi...

Akademik Sosialist Əməyi Qəhrəmanı M.Topçubaşovun "Səməndər quşu" məqaləsində maraqlı bir hadisə təsvir olunur: "... Mərkəzi Komitədə işləyirdi Bakıda cərrahların yığıncağı keçirilməli idi. Bununla əlaqədar yanına getmişdim. Katibəsi məni tanıyırdı. Sorğu-sualsız kabinetinə keçirdim. Qapını açanda, onu 3-4 adamla söhbət edən gördüm. Ayaq saxlayıb kabinetdən çıxmaq istəyəndə, məni çağırdı. Keçib əyləşdim. Söhbətlərindən belə görürdüm ki, buradakılar tikinti mühəndisləridir. Mübahisəli məsələləri vardı. Əziz də elə bil "mühəndisləşmişdi". Hər şey barədə yerli-yataqlı məsləhətlər verirdi. Zarafatla soruşdum:

- Əziz lələ, deyəsən indi də təhsilini mühəndislər institutunda davam etdirirsən?

- Yox, doktor, - dedi. Söhbətinə ara verdi. Lakin sözlü adama oxşayırdı. - Tələsmirsən ki? - Sualına özü də cavab verdi. - Əlbəttə, tələsirsən. Tələsmək yaxşıdır. Ancaq təkcə təbabət üçün tələsmək mənca çox azdır. Niyəsini deyim: bir ömür təbabət üçün tələsmək, bir ömür mühəndislik üçün, bir ömür fəlsəfə üçün, bir ömür aqronomluq üçün... Axı ay doktor, bizə bu qədər ömürləri verən kimdir?..

Əzizə ömürlər verilməmişdi, bir ömür verilmişdi. Elə bir ömür ki, bütün biliklərə kifayət etmişdi. Yenə də özündən, biliyindən razı qalmırdı...

Bu məqamda böyük tatar şairi Musa Cəlilin gözəl bir sözü yadıma düşür: "Gərək elə yaşayasan ki, öləndən sonra da yaşaya biləsən." Bu gün yüzlərlə insan doğma xalqının Əziz övladını sevə-sevə yad edib ruhuna rəhmət diləyir. Yüzilliklər belə ötsə də, adı ürəklərdə yaşayan Əziz Məmmədkərim oğlu Əliyevin xidmətləri yenə tədqiq olunacaq, yazılmamış, deyilməmiş şücaətləri tarixin səhifələrinə köçəcəkdir. Buna heç bir şübhəmiz yoxdur. Bununla belə, haqqımız var düşünək ki, ölkəmizdə istər maarif işlərində, elmin, xalqın tərəqqisinə məhəbbət və məsuliyyətlə yanaşmada, istərsə də insan həyatına, sağlamlığına vicdani, munis dəyərlərlə xidmətetmədə Əziz Əliyev məfkurəsi parlaq bir örnək olmalıdır. Vətəndaşlarımızın mənəvi və fiziki kamilliyinə, sağlam bədən və sağlam ruhla qurub-yaratmaq eşqinə dəyərli rəvac verən bir örnək...

Reyhan Mirzəzadə
Publisist-politoloq